**Tarix və onun problemləri, №1-2 2009**

QARA NAMAZOV

## BÖYÜK UYĞUR İMPERİYASI

C.Cercvardın təsvirinə görə ərazisinin böyüklüyü, coğrafi genişliyi, həmçinin dil, din və başqa yaxınlığı baxımından Günəş İmperatorluğu – Mu qitəsinə ən yaxın olan Böyük Uyğur İmperyası idi. Böyük Uyğur İmperyası Mu İmperyasından sonra dünyanın «gəlmiş-getmiş» bütün özəlliklərini özündə daşımışdır.

C.Cercvard qədim kitablara əsasən tərtib etdiyi xəritədə Böyük Uyğur İmperiyasının Şərq sınırı Sakit okeana, Qərb sınırı bugünki Rusiyada Moskva yaxınlığına dayanmış, güneydən Çin, Birma, Hindistan və pers ölkələrinin bir hissəsini öz içərisinə almışdır. Qüzeydən isə Şimal Buzlu okeana qədər uzanırdı. Avropa torpaqlarının çox hissəsi də böyük Uyğur İmperiyasına daxil idi. Cənubda həmçinin Qara dəniz və Xəzər dənizi ətrafı da bu səltənətin içərisində idi.

C.Cercvard yazır ki, «Uyğur xalqının tarixi «Arı irqlərin» tarixidir. Həqiqətən də arı irqlərin toxumu uyğurların soyundan gəlmədir. Çünki ən qədim dövrlərdən uyğurlar Avropanı zəncirvari öz içərisinə almışdır».

Geniş araşdırmalara əsaslanan C.Cercvard qeyd edir ki, imperatorluq böyük «Tufan» və fəlakət nəticəsində dağılmış, insanların sağ qalanlarının soyundan törəyənlər yenidən Avropada yerləşməyə başlamışdılar. Bu olay prototarix zamanında baş vermişdir. Müəllif yazır: «Slavlar, totonlar, keltlər, irlandlar, brotonlar və başqılarının hamısı uyğur soyludur. Bu soydan olanlar böyük fəlakətdən sağ qalanların törəmələridir:

C.Cercvard dil qohumluğu ilə bağlı iki əhvalat da söyləyir: Gəzdiyimiz illərdə Nyu-Yorklu bir iş icraçısı Kubada bir iş almışdı. İcraçı ustalar gətirdi, ancaq işçilər kubalı olacaqlardı. İcraçı irlandiyalı ustanı yanına alıb yola çıxdı. Kubaya gələndə bir dəstə baskılı işçi ilə qarşılaşdırlar. İcraçı: Bizə bir dilmanc lazımdır, mən gələnədək gözləyin. Bir saatdan sonra dilmancla geri dönəndə irlandlı köməkçini baskların arasında zarafatlaşdıqlarını görüb çaşdı: Dilmancı qaytar getsin dedi, biz irlandlı yoldaşlarla eyni dildə- qaldlı dilində danışa bilirik.

C.Cercvard başqa bir misal da çəkir: Hindistanda Britaniya ordusunda əskərlər Tibet tərəfdə Nepal yaxınlığından keçirdilər, aralarında bir irlandlı zabit də vardı. Kəndlərin birindən keçəndə zabit gördüyünə inanmır, təkrar qulaq asır, sonra dəstəsindən ayrılıb yaxındakı bir neçə yerlinin yanına gəlir və deyir: «Boqrah, bu kiçik şeytanlar mənim ana dilində danışırlar»... Müəllif tamam ayrı-ayrı xalqların zaman keçəsə də dil qohumluğunun unudulmadığını bu misallarla yada salır.

C.Cercvard yenidən mətləbə qayıdır və qeyd edir ki, Uyğur İmperiyası Orta Asiyanı bütün Sakit okeandan Ural dağlarına qədər içinə alırdı və Avropanın mərkəzi nöktələrindən irəliyə doğru addımlayırdı. Ona ancaq maneə olan Atlantik okeanı idi.

Uyğurlar iki köç dalğası ilə hərəkət etmişlərdi. İlk köçlə gələnlər axırda böyük fəlakət nəticəsində yox edildilər. Ardınca dağlar əmələ gəldilər, amma uyğurlar tamam yox olmadılar. Üç sülalə yaşayıb inkişaf elədi. Həmin sülalələrin bu günki nəsilləri Fransadakı brotonlar, İspaniyadakı başqlar öz dediklərinə görə saf irlandlılardır.

İlk uyğurlardan çox az qaynaq ələ gəlmişdir. Onlardan ən önəmlisi bu gün Moravya olaraq tanınan bölgədə qalanlardır. Burada tufan və dağların yaranmasından sonra tarixə qarışmış bir topluq yaşamış, xarabaları dağların ətəklərində görünməkdədir.

C.Cercvard yazır ki, «Uyğur imperatorluğu yaşayışının zirvəsi dövründə hələ uca dağlar yox idi. Qobu çölü zəngin suyu bol bir torpaq idi. İmperatorluğun baş kəndi Baykal gölünün yaxınlığında yerləşən Xara-Xata şəhəri idi.

Müəllif daha sonra qeyd edir ki,1896-cı ildə bir dəstə arxeoloq Tibetdən əldə etdikləri bilgilər əsasında qədim Xara-xata şəhəri yaxınlığında qazıntı işləri aparmışlar. On beş metr dərinlikdə Uyğur imperiyasının baş kəndinin xarabalıqlarının içinə düşmüşlər. Oradan bəzi əşyalar da əldə etmişlər.

Məzarın içərisindəki əşyaların çıxarılmasına icazə verilmədiyi üçün fotoqraf bəzi qiymtəli xəzinələrin anjaq şəklini çəkə bilmişdi. Bunların arasında iki şəkilin surəti diqqəti daha çox cəlb edirdi. C.Cercvard tərəddüd etmədən bu şəkilləri 16000 və ya 18000 ilə aid edir. Bunların kimliyi olduqları bəlli olan rəmzi şəkillərdir. Əslindən ipək üzərinə köçürülmüşdür. Şəkillər oturmuş vəziyyətdə kraliça və onun ərini təmsil edirlər. Sağ tərəfdəki kraliçanın başında üç uçlu bir tac və bu tacın ortasında üç tərəfə işıq yayan disk görünür. Bədənin arxasında bir günəş diski parlayır. Başının arxasında isə kiçik bir disk vardır ki, bu da ikinci dərəcəli günəşdir. Deməli, böyük disk Mu İmperiyasını, kiçik disk uyğur İmperiyasını təmsil edir. Başındakı tac yarı işıq saçan yarım günəş, onun bir koloniya imperiyası olduğunu göstərən əlamətdir. Sol əlində kənarları üç çatallı formada olan bir əsa vardır. Üç Anavətənin sayıdır. Tam açmış müqəddəs Lotus (çiçək) Ana vətənin çiçək rəmzinin üzərində oturmuşdur. Bu rəsmdə Mu tərəfindən qucaqlandığı və yuxarı tutulduğu göstərilir. Əri əsa sahibi deyildir, işıq saçan bir günəşi də yoxdur. Ancaq onun yerində bir uzağı görə bilən cism durur. Onun tacı da üçlü formada Ana vətənə işarədir.

C.Cercvard qazıntı vaxtı əldə edilən əşyalarla Mu qitəsi haqqında bilgiləri tutuşdurmuş, həmçinin o yerlərdən toplanan əfsanələrdən ölkə haqqında aşağıdakı nəticəyə gəlmişlər: "Himalay dağları da daxil olmaqla Orta Asiya bütünlükdə bir zamanlar dümdüz, verimli, əkinə yararlı yerlər, ormanlar, güllər və çaylarla zəngin idi. Mükəmməl inşa edilmiş caddələr, karvan yolları, çeşidli şəhər və qəsəbələr bir-biri ilə bağlı idi. Bir-birindən gözəl inşa edilmiş yaraşıqlı binalar, xüsusi evlər, yetgin öndərlər üçün saraylar vardı. Bu gün isə (müəllif 19-cu yüzili nəzərdə tutur Q.N) Qobu Çölündə tufanın bütün torpağı söküb, yerinə çılpaq qayalar buraxmış, çayların, kanal və güllərin qurumuş yataqları aydınca seçilməkdədir. Qobu Çölündə suların söküb gətirdiyi saysız əşyalar vardır.

Müəllifin yazdığına görə yalnız əfsanəvi bilgilər deyil, əldə edilmiş inandırıcı dəlillər də mövcuddur. Beləki, Tibet monastırında saxlanılan bəzi rahib yazıları saxlanmışdır. Bu yazılarda deyilir: "Naakallar (rahiblər) 70000 il öncə Anavətənin müqəddəs mətnlərinin surətini Uyğur başkəndinə apadılar". Bu əfsanəvi tarix Anavətəndən (burada Mu qitəsi nəzərdə tutulur – Q.N.) gəlmiş uyğurların Asiyada ilk yerləşmələrindən, bu günki Sarı dəniz sahillərində yurd qurduqlarından xəbər verir. Buradan da hərəkət edərək Asiyanın içərilərinə doğru yayılmışlar. İlk köçləri çox sulu və düzlük bir obaya-Qobu çölünə oldu. Bundan sonra bütün Orta Asiyadan Xəzər dənizinədək ərazilərdə yurd qurdular. Bu yurd Orta Avropadan Atlantik okeanına qədər yayılırdı.

Yazılı mənbələr bizə uyğurların çox böyük şəhərləri olduğunu xəbər verir. Bu böyük şəhər və qəsəbələr okean suları və Qobú Çölünün qumları altında yatırlar.

C.Cercvard arı irklərin – uyğurların Hidistana gəlməsini m.ö. 1500-cü illərdə başlandığını yazır. «Onlar Hidistana gəldikdən sonra arı irk kimi tanındılar».

Müəllif onu da qeyd edir ki, midyalılar və perslər də qonşu dağlardakı evlərini m.ö. 1800 ilə m.ö. 1600-cı illər arasında tərk etməyə başladılar, çıxışları-vətəni tərk etmələri m.ö. 1500 -cü illərdə tamamladı. Hindu ariləri uyğurların bir qolunun soyundan gələnlərdi. Dağların yüksəkliyində Hiduquş yaxınlığında Əfqanıstan dağlarından qaç-

maq məcburiyyətində qaldılar. Midiyalılar və perslər bu insanların şimaldakı davamı sayılırlar.

Əlbəttə, C.Cercevardın bu mühakiməsi maraq doğursa da mübahisəlidir. Ola bilsin ki, midiyalılar uyğurlarla eyni kökdən olsunlar. Ancaq perslərin (farsların) uyğurlarla soy qohumluğu inandırıcı görünmür. Çünki Midiya ilə farslar arasında həmişə müharibələr getmiş, sonda farslar Midiyanı məğlub etmişlər...

Tarixən daha qədim olan Uyğur imperiyası Günəş İmperiyasının «Ən başında gələn müstəmləkə imperatorluğu idi və şərq yarısı Tövratda xatırlanan «Tufan» nəticəsində məhv olmuşdu».

Müəllif arxasınca qeyd edir ki, «Çin əfsanələrinə görə uyğurlar 17000 il əvvəl mədəniyyətin zirvəsində olmuşdur. Bu tarixi - geoloji fenomelərlə də uyğun gəlir».

Uyğur İmperiyasının Sakit okeanın qarşı tərəfindəki Orta Asiyadan uzanan güclü qolları Xəzər dənizi üzərindəki Şərqi Avropanı tutmuşdur. Bu Britaniya adalarının Avropa hövzəsindən aralanmasından əvvəl idi. Uyğur İmperiyasının cənub sərhədi Qaçın Çini, Birma, Hindistan və İranın Şimal sərhədlərinə qovuşmuşdu, bu da Himalay və Asiyanın başqa dağlarının yaranmasından əvvəl idi.

Nəhayət qədimdən qalma bir hindu mənbəində deyildiyi kimi uyğurlar Xəzər dənizinin Şərq və Qərb sərhədlərindən Avropanın içərilərinə doğru yayılmışlar, buradan da sərhədləri Orta Avropadan hərəkət edərək qərbin uçuna-İrlandiyaya qədər genişlətmişlərdi.

C.Cercevard cızdığı xəritəsini davam etdirərək yazır ki, uyğurlar quzey İspaniya, quzey Fransa və aşağı bölgələrdə və Balkanda da yerləşmişlərdi. Moravya və uyğur qalıntılarında gözlənilən arxeoloji tapıntılar və etnoloqların insanın ilk olaraq Asiyada ortaya çıxdığı nəzəriyəsini təsdiqləyən ip ucları Avropaya irəliləyən uyğurların buraxdığı izlər arasındadır.

C.Cercevard uyğurların sivilizasiya və mədəniyyət baxamından çox irəlilədiklərini də xüsusi ilə qeyd edir «Uyğurlar astrologiya, mədəniçilik, toxuculuq, memarlıq, riyaziyyat, təhsil, oxumaq, yazmaq, tibb və s. kimi elmləri bilirlərdi. İpək, taxta və metal üzərində çalışan dekorativ sənətlərin ustası idilər, qızıl, gümüş, bürünc və gildən heykəllər qururdular. Bu, Misir tarixindən daha əvvəl idi.

Uyğurlar imperatorluğun yarsını Mu qitəsi batmadan əvvəl itirmişdilər, qalan yarısı isə Mu qitəsi batdıqdan sonra silinməyə başladı.

M.ü 500-cü illərdən qalma Çin qaynaqları uyğurları «açıq rəng saçlı, mavi gözlü kimi tanıdırlar. Uyğurların hamısının parlaq simaları, süd kimi bəyaz bədənləri, fərqli rəngdə gözləri və saçları vardı. Quzeydə mavi göz və açıq rəngdə saç, güneydə göy rəng saç və köz rəngli baxışları ilə seçilirdilər».

C.Cercvard Uyğur imperiyasının dağılmasının səbəbi və tarixi haqqında da ətraflı araşdırma aparmışdır.

Bir monastırda saxlanılan qədim yazıda deyilir: "Uyğurların baş kəndi bütün insanlarla birlikdə imperatorluqun yaxasını başdan-başa hər şeyi yox edən bir tufan-fəlakət tərəfindən dağıdıldı."

Müəllif qeyd edir ki,bu qədim yazı geoloji araşdırma ilə də təsbit olunur. Orada da deyilir: Başkənd qədim Xara-xata şəhəri təməlinədək bütün qat-qat qayalar, çınqıllar və qumla örtülmüşdü. Su basmasının meydana gətirdiyi bu durumu dünyanın hər yerində bütün geoloqlar qəbul edirlər. Bu "tufan" heç şübhə yox ki,müqəddəs kitabdakı "Tufan"ın son maqnit fəlakətinin quzey dalğa axını idi.

C.Cercvard 1880-ci ildə Baykal gölünün güneyindəki bir nöqtədən Dena çayının ağzına və Arktik okeanındakı adalara qədər uzanan geoloji bir araşdırma aparan əməkdaşlarla birlikdə olmuş, axtarış nəticəsində minlərcə il əvvəl içərisində buz olma-

yan nəhəng bir fəlakət dalğasının güneydən-quzeyə doğru bu ərazidən keçdiyini müəyyən etmişlər.

Geoloqların araşdırmalarına görə bu tufan quzey yarımkürədə yaşanmış bir buz çağında meydana gəlmişdir. Uyğur imperatorluğunun şərq hissəsi Başkənd də daxil olmaqla orada yaşayan insanlar demək olar yox olmuş, amma qərb və güneybatı ölkələrinə heç nə olmadığı müəyyənləşir.

Uyğur imperatorluğu sınırları içərisində dağlıq ərazilər çoxdur. Deyildiyi kimi dağlar meydana çıxarkən torpaq salxım-salxım sallanmışdı. "Dünyanın bağarsağından qayalar fışqırarkən zəlzələlər torpağı parça-parça etmişdi. Bu məqamda vulkanların püskürtüsü də buna əlavə olmuşdu. Tufandan uyğurların çox az qismi sağ qala bilmişdi. Onlar da başqa bölgələrə sığınmışlardı».

Qobu çöllərindəki alçaqlı-ucalı dağlar bölgənin su yollarını dəyişdirdilər. Qayaların çatlayıb dağılması suyun yer üzünə çıxmasına səbəb oldu. Və yerin altından çaylar əmələ gəldi. Sonralar bütün sular çəkilincə Qobu çölləri bu günki vəziyyətinə gəldi; Qumlu, qayalıq, yaşanılması çətin olan bir əraziyə çevrildi. Şübhəsiz qumluq bölgələrin quzeyində bir neçə metr dərində su əldə etmək mümkündür. Bu əfsanəvi-tarixi mənbələr uyğurların bütün Avropanın içərilərinə yayıldıqlarını anladır.

Qədim bir hindu dilində olan "Manu" kitabında uyğurların Xəzər dənizinin quzey və güney sahillərində yerləşmələri bildirilir. Bu, Maxs, Müllerin tarixindən əvvəlki dönəmdə irəli sürdüyü köçdür. Əslində bu, uyğurların Avropaya ikinci köçüdür. Bu köçü elm adamları da təsdiqləyir. Çünki yaşanması mümkün olmayan dağlardan qaçan uyğurların Avropaya yerləşmələri təsdiqlənir. Bunun doğruluğunu təsdiq edən Maxs. Müller yazır ki, İlk Qafqaziyalılar Orta Asiya dağlarından gəlmiş kiçik dəstələrdir. O, uyğurların ayrıca Qafqaz bölgələrinə tarixdən əvvəl, yəni dağların əmələ gəlməsindən sonra gəldiklərini də əlavə edir. Cercvard Maxs Müllerin bu fikrinə onu da əlavə edir ki, uyğurlar dağların qalxmasından öncə də Avropada idilər.

Müqayisələr göstərir ki, uyğurların əhatə etdiyi coğrafi ərazi bizim Qobustanı da öz içərisinə alır, qədim Uyğur İmperiyasında baş verən «Tufan» Qobustandan da yan keçməmişdir. Qeyd etdiyiniz kimi tarixdə və səma kitablarında xatırlanan «Tufan» cənubdan şimala doğru hərəkət edərək bütün Orta Asiyanı Sibirə qədər yaxalamış Buzlu Okeana dayanmışdır.

Bizim görkəmli arxioloqumuz İsaq Cəfərzadə 1947-ci ildə Qobustanda arxeoloji qazıntı işi aparmış, axtarış və tədqiqat nəticəsində «750 qaya üzərində 4000-ə qədər insan, heyvan təsviriləri, müxtəlif işarə, damğa, yağış suyu və qurban kəsilən heyvanların qanını toplamaq üçün istifadə olunmuş yalaqlar-qablar və s. aşkar edilmişdir. Qobustan qaya təsvirlərində əsasən qadın və kişi rəsmlərindən, vəhşi öküz, keçi, maral, ceyran, qürd, şir şəkillərindən ibarətdir. Heyvanlar bəzən öz təbii böyüklüyündə çəkilmişdir. Qayalar üzərində qazma üsulu ilə çoxlu qayıq təsviri həkk olunmuşdur. Silahlı və silahsız adamlar oturmuş qayıqların burnunda günəş, habelə tək-tək daşlar üzərində balıq, ilan, kərtənkələ, büvə, qapı tağbəndi, iki təkərli araba şəkilləri və insan ayağının ləpirlərinin təsvirləri var. Ay, Günəş, ulduz, xaç təsvirləri, əlləri yuxarı ibadət etmək və rəqs səhnələri də təsvir olunmuşdur». (ASE.c.3. səh. 189-190).

Qobustandakı qayaüstü təsvirləri arxioloqlar kompozisiyasına və çəkilmə texnikasına görə müxtəlif dövrlərə bölürlər, e.ə. 8-ci, 5-ci minillikdən b.e-nın orta əsrlərinə qədər davam etdiyini yazırlar. «Tufan»dan qalma təsvirlərlə Qobustan və Orta Asiya təsvirləri bir-biri ilə çox səsləşir və belə deməyə əsas var ki, Qobustan təsvirlərinin də ən qədim nümunələri elə uyğur qaya təsvirlərinin demək olar eynidir.

Mu qitəsi başqa müstəmləkələrlə yanaşı Böyük Uyğur İmperatorluğu ilə də dəniz vasitəsilə əlaqə saxlayırdı. Görünür Uyğur səltənətində gəmiçilik geniş inkişaf etmişdir.

Deməli, Qobustandakı gəmi təsvirləri təsadüfi deyil, Mu qitəsi və başqa dövlətlərlə də bağlı olmuşdur.

Belə qənaətə gəlmək olur ki, bu səsləşmələr bir-birini tamamlayırsa, deməli bizim arxeoloqlarımızın təxmin etdiiyi 5,8 min il əvvəllə yox, daha qədimlərə – uyğur İmperiyasının yaşadığı dövrlərə- yəni 20000 il əvvəllərə gedib çıxır. Bu yöndə-uyğurların – yəni türklərin güney Qafqazda 20000 il bundan öncə bir imperiya kimi yaşamaları nəticəsinə gəlinməlidir.

Onu da xatırladaq ki, Naxçıvandakı Gəmiqayanın tarixinə də III – I minilliklərin mədəniyyəti kimi yox, yəqin ki, prof. Vəli Əliyev bu tarixi təxminən götürmüşdür. Həmin dövrlərin tarixi kimi, yəni Uyğur İmperiyasının zamanına dayanmasını qəbul etmək daha doğru olardı. Çünki C.Cercevardın mənbələrə əsasən verdiyi bilgilərə görə uyğurlar güney Qafqazda sakit olduqları dövrlərdə gəmiçilikdən qitələr arasında geniş istifadə edilmiş, sübhəsiz Naxçıvandakı Gəmiqayadan da məntəqə kimi istifadə olunmuşdur.

Onu xatırladaq ki, Baykal yaxınlığındakı Qobu çölündəki təsvirlərlə bizim Bakı yaxınlığındakı Qobustan qayaüstü təsvirləri də, hətta yerin adları da bir-birlərinə çox bənzəyirlər. Bu maddi – mədniyyət abidələrinin eyniliyi də bu torpaqda hələ 20000 əvvəl uyğurların – türklərin yaşadıqlarını təsdiqləyən faktlardır.

C.Cercvard uyğurların daha öncəki 20000 il qabaq qurduğu imperatorluq haqqında da araşdırma aparır. Bu, müqəddəs kitabdakı "tufan" geoloji-mifaloji baxımdan "buz çağı" dövründən və dağların əmələ gəlməsindən öncəki dövürlərə gedib çıxır.

Müəllif Böyük Uyğur imperatorluğunun həmin dövürdə bütün Avropa və Asiyanı əhatə edən xəritəsini də tərtib etmişdir. İmperiyanın 20000 il bundan öncə qara parçaya çəkilmiş bir çox xəritəsi sulara qərq olmub, bəziləri də sonradan ortaya çıxıb əldə edilmişdir. Xəritədə Sakit okeandan Atlantik okeanına doğru Asiya və Avropanın iç kəsimləri boyunca bir xətlə imperatorluğun mərkəzi ilə əlaqələndirilir.

Xəritədə göstərildiyi kimi imperiya yalnız iki sınır-Şərqdə Sakit okean ilə, güneydə Nağa imperatorluğu ilə həmsərhəddir. Bu gün (yəni 19–cu yüzildə Q.N.). Atlantik okeanın sahillərində uyğurların soyundan qalanlarla rastlaşmaq olur. Təəssüf ki, soylarını söylətməyə kimsə təşəbbüs göstərmir.

Qədim Şərq bölgəsində Uyğur İmperatorluğunun bir krallıq birliyi yaranmışdır. Krallığın tərkibində olan hər ölkənin öz hakimi vardır. Onlar da Birləşmiş Uyğur İmperatorluğu sayılırlar. Bu İmperatorluq Mu qitəsinə bağlı ayrıca tək imperatorluq sayılmışdır.

C.Cercvard onu da qeyd edir ki, bu günki Amerika Birləşmiş Ştatları quruculuq baxımından Uyğur İmperatorluğunun bənzəridir. Əslində dünyanın ayrı-ayrı birləşmiş dövlət quruculuğunun mənbəi Mu qitəsindən gəlir və onun sonrakı dövlətlərdə davamıdır.

C.Cercvard Tibet ölkəsini Uyğur imperatorluğunun içərisində verir. Tibet Orta Asiyada yerləşir. Şərqdə Çin, quzeydə Monqolstan, güneydə Hindistan, batıda Kəşmir və Türküstanla həmsərhəddir. Qobu Çölü qüzeydən onun daxilindədir. Tibet əvvəllər də Uyğur İmperatorluğunun tərkibində olmuşdur. Bu, dağların yaranmasından əvvəl idi. O zamanlar ölkə düzlük və məhsuldar idi. Bu gün isə dünyanın ən yüksək platolarından birinə çevrilmiş, Şərq-qərb istiqamətində yüksək sıra dağlarla əhatə olunmuşdur. Güneyində dünyanın ən yüksək dağları - Himalay silsiləsidir. O zaman Tibetə «dünyanın çatısı» deyilirdi.

Tibetdən bəhs edən müəllif yazır ki, Tibetdə dağların çox çətin keçilən yaxalarında bir çox monastır, heyvan toylaları (damı), monastrın xidmət evləri vardır. Onlar xaricdən qapalı bir həyat keçirirlər. Tibet monastrlarında yaşayan rahiblərin bir qismi

3000 il əvvəl brahmanlar tərəfindən Hindistandan sürgün edilmiş naakalların (rahib) soyundan olduqlarını söyləyirlər. Bu insanlar ilkin orjinal dini, hətta dünyanın ilk böyük kəşfləri olan kosmik elmlərdən bəzilərini qoruyub yaşatmışlar. Müəllif onu da qeyd edir ki, Tibetdə yüzlərcə monastrın içində belə kosmik monastrların sayı beş barmağın sayı qədərdir. O da var ki, monastrların çoxunda buddizmi təqib edirlər.

Müəllif yazır ki, Bir neçə il öncə Şlieman Xassadakı qədim buddist mənbələrində Mu qitəsinin batması ilə bağlı bir yazı tapmışdır. Bu yazı Pali və Tibet qarışıq dillərində qələmə alınmış qədim bir tabletin tərcüməsidir. Orjinalı itsə də ancaq tərcümə otağında yüzlərcə yazıların içərisində toza batmış vəziyyətdədir.

Müəllif dağlardakı başqa bir monastr haqqında yazır: «Saylarını tam xatırlamıram. Ancaq monastrların birində naakal kitabxanasında minlərcə tabletlər vardır. Bu tabletlər haqqında mənə uyğurların Başkənddə nakal kitabxanası olduğunu söyləmişlərdi. Bu tabletlərlə bağlı qəribə əfsanəvi bir hekayə də söylədilər. Bu söylənilən əfsanəni dostum yaşlı Rişəyə söylədim və onun xəbəri olub olmadığını soruşdum. O, mənə gənclik illərində orada olduğunu və tabletlərin taleyindən danışdı: «şərqi və şimali-şərqi Asiyanı tufan qovurub məhv etdiyi zamanlarda Uyğur İmperiyasının başkəndi də yerə gömülmüş, xalqının soyu kəsilmişdi. Bu əsnada naakalların Ana vətəndən buraya gətirdikləri böyük bir kitabxana da torpağa görülmüşdür. Aradan illər keçdikdən sonra tufanın toxunmadığı batı bölgələrində yaşayan naakallar Başkəndin xarabalarına getdilər, tabletləri yerdən çıxartdılar və batıdakı bir monastr xidmətçilərinin evinə daşıdılar. Dağlar yüksəlib həmin evlər də dağılana qədər tabletlər orada qaldı. Aradan uzun illər keçdi. Bir zaman da dağlaran sakitlənməsindən qurtulan naakalların nəvələri gedib tabletləri torpaq altından çıxartdılar və bugünki yaşadıqları evə daşıdılar. Bizim Rişi kəndimiz olan Ayodhya işğalçı ordu tərəfindən ələ keçirilib, dağıdıb yandırıldıqda nakal kitabxanasını monastr xidmətçilərinin yaşadığı evin arxivində olduğu və düşmənin bunları heç zaman tapa bilmədiyi bir əfsanəmiz də vardır. Əgər gələcək nəsillər bu kitabxananı axtararsa, monastr xidmətçilərinin evlərinin xarabalıqları altında nakal kitabxanası sap-sağlam durmalıdır, çünki həmin yer qazılmadı».

C.Cercvardın qədim Çin haqqında da çox qəribə qənaətləri vardır. O, yazır: Çin dünyanın ən qədim səltənəti kimi düşünülür və qəbul edilir. Əslində Çin bir səltənət olaraq keçmişi sadəcə 5000 ildir. Son bilgilərə görə çinlilərin öz səltənətlərini belə zənn etmələri firkə hakimdir. Həqiqətdə isə bu mülahizə doğru deyil. Çin səltənəti haqqında bu əfsanə ataları tərəfindən gələn bir ənəndən qidalanmışdır.

C.Cercvarda görə mənbələrdə Çinin monqol soylu olduğu da zənn edilir. Ancaq çinlilər sadəcə yarım qan monqoldur. Digər ataları bəyaz arilərdir. Uyğur imperiyası zamanında ağ uyğurların bir çoxu sarı irqdən, yəni monqollarla evlənirlərdi. Mənbələrdə belə deyilir: «Uyğur erkəkləri sarı vəhşilərin ən yaxşıları ilə evləndilər. Çünki, bu evliliklərin gerçəkləşdiyi dövrlərdə yer üzündə vəhşilik deyə bir məfhum hökm sürürdü. Bu baxımdan aşağı sarı irqə işarə vurulurdu. Bu mənada sarı monqolların uyğurlardan daha çox geri qaldıqları, sətlənətlərinin də uyğurlarınkından geri durumda olduğuna şübhə yoxdur. Dövrümüzdə çinlilərin bir çoxu son dərəcə bəyaz bədənə sahibdir. Bu, əlbəttə, damarlarındakı uyğur qanına işarədir. Aşağı sinif olaraq qəbul edilən çinli-kuli tipii isə üyğur qanı daşımır. Onlar da qədim sarı monqolların nəvələridir».

Bu çarpaz evliliklərdə uyğurlu tərəf uşaqlarının uyğur biçimlərinə görə yetişdirilməsinə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə Çin imperatorluğunda ilk olaraq damarlarında uyğur qanı olan və Böyük Uyğur səltənətindən törənmiş adamlara önəm verilirdi. Deməli, Çin səltənətinin atalarına görə onlar qədim uyğur mədəniyyətinin davam olduğu qənaətinə gəlinir. Çindəki Tao mənbələrində bunu təsdiqləyən çox yazılar vardır, hər çinli elm adamı bunu soruşmadan qəbul edir. Çində əldə etdiyimiz mənbədə be-

lə deyilir: «Çinlilər asiyalı deyildirlər. Asiyaya doğan günəş istiqamətində uzaq bir ölkədən gəlmişlər».

Uyğur İmperatorluğunun çökməsindən yeddi və ya səkkiz min il sonra şərqi Asiyada saysız kiçik ölkələr meydana gəldi, əksəriyyəti də monqol tipi. Bu monqol ölkələrinin ən önə çıxanı tatarlar (müəllif türkləri nəzərdə tutur – Q.N.) idi. Onların başçısı çox tanınmış Çingiz xanla Kubilay xan tanınmış şəxsiyyətlər idilər.

Çinin böyük alimi Konfüçus m.ö. 551-ci ildən 480-ci ilə qədər yaşamışdır. m.ö. 214-cü ildə imperator Çe Hvang-te qədim Çinə aid bütün kitab və ədəbiyyatın yandırılmasını əmr etmişdir. Ədəbiyyatın böyük qismi yandırılmışdı. Yandırılanların arasında Konfüçus və Mensinisin kitabları da vardır. Həmin imperator Heung (Hun-Q.N.) tatarların (türklərin Q.N.) hücumundan qorunmaq üçün Çin səddini çəkmişdir.

Mu qitəsinin Günəş imperatorluğunda olduğu kimi Böyük Uyğur İmperatorluğu da Günəşin simasında tək tanrıya etiqat göstərirdilər.

C.Cercvardın Böyük Uyğur İmperiyası haqqında apardığı geniş araşdırmalar, əldə etdiyi zəngin mənbələr və arxeoloji materiallarla təsbit olunur və şübhə doğurmur. Açaq bir məsələ tarixşünasların nəzərinə cəlb edir ki, bütün Asiyada və Avropanın çox hissəsində İmperiya quran türklər olmuşlar. Əlbəttə, uyğurlarla türklər eyni dilli, eyni soylu xalqlardırlar. Xatırladım ki, C.Cercvard bu araşdırmaları aparan zamanlarda 1880-1936-cı illərdə) Avropa Osman İmperiyasına qarşı səlim yürüşünə qalxmışdı və Birinci Dünya savaşında da qərb dövlətləri, o cümlədən İngilislər və yunanstan Osman İmperiyasına qarşı Böyük savaşlar aparırdılar. Milliyətcə ingilis olan Ceyms Cercevardın araşdırmalarından aydın duyulur ki, onun türklərə hüsn-rəğbəti olmamış əvəzində uyğur imperiyasını ön plana çəkmişdir. Axı Cercevardın haqqında bəhs etdiyi Orta və Şərqi Asiyada yaranan daha çox türk sülalələrindən ibarət xırda dövlətlər idi. Mənbələrə görə Uyğurların ilk dövləti M.ö. VIII yüzildə yaranmış Çinlə apardıqları uzun müddətlə müharibələrdə müstəqilliyini itirmişdir. Anjaq V yüzildə Selenqa Çayı vadisində bir bəylik qurdular. Sonrakı illərdə oğuzlarla birləşib Basmil və Qarluq bəyliklərində özlərinə qatdılar. 747-ci ildə Xaqan Kutluq Bilgə Gül vəfat etdi, yerinə oğlu Moynçordan xaqan oldu. Moynçordan sonra Gürlük Bilgə (82) Xaqan oldu. Şərqi Türküstan Uyğurları Çin ilə münasibət qurub Turfan uyğurları adlı (856) dövlət yaratdılar. Bu dövlət 13-cü yüzilin əvvəllərinə qədər yaşadı. Çinin Qaansu əyalətində də dövlət (905-940) qurulmuşdur. Uyğur dövləti Çinə məğlub olana qədər öz dövlətçiliyni saxlamışdır. Bizim dövrdə Uyğur dövlətləri bunlar idi.

C.Cercvardın Uyğur imperiyası haqqında apardığı geniş araşdırmalar fərqi yox, uyğur ya türk, yəni eyni soylu xalqın qədim tarixindən bəhs edir və biz onun bu inadlı axtarışlarına və böyük kəşflərinə görə minnətdar olmalıyıq.

**КАРА НАМАЗОВ**

**ВЕЛИКАЯ УЙГУРСКАЯ ИМПЕРИЯ**

В статье речь идет об Уйгурской империи, некогда занимавшей внушительную территорию Азии и Европы. По древним текстологическим и археологическим исследованиям английского историка Черчварда. Уйгурская империя была уничтожена 11500 лет назад в результате «урагана», упоминавшегося еще в «Торе». Согласно исследованиям, эта была тюркская империя.

В статье приводятся подробные исторические сведения об империи.

**GARA NAMAZOV**

**GREAT UYGHUR EMPIRE**

In the article it is a question of Uyghur empire, there is in former time occupying impressive territory of Asia and Europe. On ancient textual and archaeological researches of English historian Cherchvard the Uyghur has been destroyed 11500 years ago as a result of the "hurricane" mentioned still "Torah". According to researches, it was Turkic empire.

In the article detailed data about empire are resulted.